# Güclənən dövlət modeli və Qərbi Azərbaycana Qayıdış Konsepsiyası



*"Ermənistandan deportasiya olunmuş Qərbi azərbaycanlıların hüquqlarının təmin olunması da böyük əhəmiyyət kəsb edir. Keçən ay İslam Əməkdaşlıq Təşkilatının İstanbulda keçirilmiş Nazirlər Şurasında Ermənistandan zorla didərgin salınmış azərbaycanlıların qayıdış hüququna dəstək ifadə edən qətnamənin bütün 57 üzv ölkənin yekdil qərarı ilə qəbul olunmasını yüksək qiymətləndiririk. Bu qətnamə ilə yanaşı, Nazirlər Şurasının yekunlarına dair "İstanbul Bəyannaməsi"ndə indiki Ermənistan ərazisindən zorla qovulmuş azərbaycanlıların geri qayıdış hüququ təsdiqlənir və Ermənistanın Qərbi Azərbaycan İcması ilə dialoqu rədd etməsi qınanılır. Qərbi azərbaycanlıların Ermənistandakı öz dədə-baba torpağına sülh yolu ilə qayıdışının təmin edilməsi sahəsində səylər bundan sonra da davam etdiriləcək". Prezident İlham Əliyev bu fikirləri iyulun 4-də Xankəndi şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşü zamanı söyləyib.*

Azərbaycan tarixinin müxtəlif mərhələləri göstərir ki, istər imperiyalar sistemindəki məhdudlaşdırıcı şəraitdə, istərsə də işğal dövrlərində xalqın milli azadlıq və müstəqillik ideyaları heç zaman tamamilə susdurula bilməyib. Azadlıq düşüncəsi xalqın yaddaşının və siyasi şüurunun ayrılmaz hissəsi olaraq nəsildən-nəslə ötürülüb. Bu ideoloji davamlılıq tarix boyunca fərqli şəraitlərdə ziyalılar, siyasətçilər tərəfindən yaşadılaraq müasir dövlətçiliyimizin təməllərini formalaşdırıb. Torpaq itkisi və etnik təmizləmələrlə müşayiət olunan tarixi ağrıları, Azərbaycan ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal edilməsi mübarizə ruhunu daha da dərinləşdirdi. Təxminən otuz il davam edən işğal dövrü Azərbaycan tarixində "donmuş münaqişə" kimi qiymətləndirilsə də, həm də milli iradənin möhkəmləndiyi, strateji səbirlə siyasi və hərbi hazırlığın aparıldığı mərhələ oldu. 2020-ci ildə baş verən 44 günlük Vətən müharibəsi və ardınca 2023-cü ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirləri ilə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam şəkildə bərpa olundu. Bu, həm də tarixi dönüş nöqtəsi kimi qiymətləndirilməlidir. Beləliklə, son 200 ildə xalqın üzləşdiyi ardıcıl torpaq itkiləri, zorakı deportasiyalar və etnik təmizləmələr erasına son qoyuldu. Hazırkı mərhələdə Azərbaycan yeni geosiyasi və iqtisadi reallıqlar fonunda qalib dövlət kimi inkişafının növbəti dövrünə qədəm qoyub. Bərpa olunan ərazi bütövlüyü ölkənin siyasi, iqtisadi və humanitar siyasətində yeni prioritetlərin müəyyənləşdirilməsinə imkan verir. Bu reallıq həm daxili resursların səfərbər edilməsi, həm də regional və beynəlxalq platformalarda Azərbaycanın güclənən mövqeyinin təminatı baxımından strateji əhəmiyyət daşıyır. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası fonunda ölkənin qarşısında dayanan növbəti mühüm strateji vəzifə indiki Ermənistan ərazisində - Qərbi Azərbaycanda yaşamış, lakin XX əsrin sonlarında zorla qovulmuş azərbaycanlıların ata-baba yurdlarına təhlükəsiz şəkildə qayıdışını təmin etməkdir. Bu istiqamət postmünaqişə dövründə Azərbaycanın milli ideoloji xəttində mühüm yer tutur və dövlət siyasətində prioritet məsələlərdən biri kimi formalaşır. Dövlət başçısının təşəbbüsü ilə Qərbi Azərbaycandan olan soydaşlarımızın hüquqlarının müdafiəsi və təşkilatlanmış şəkildə qayıdış prosesinin təşkili məqsədilə 1989-cu ildən fəaliyyət göstərən Azərbaycan Qaçqınlar Cəmiyyəti 2022-ci ildə Qərbi Azərbaycan İcması (QAİ) adı ilə yenidən qurulub. Sözügedən addım təşkilati-institusional bazanın gücləndirilməsi ilə yanaşı, məsələni regional kontekstdən qlobal hüquqi və siyasi müstəviyə çıxarmaq niyyəti daşıyır. İcmanın yenidən formalaşdırılması həm də funksional əhəmiyyətə malikdir. Belə ki, bu çərçivədə "Qayıdış Konsepsiyası" hazırlanaraq azərbaycanlıların Qərbi Azərbaycana dinc, mərhələli və beynəlxalq hüquq normalarına uyğun qayıdışının hüquqi-siyasi mexanizmləri müəyyənləşdirilib. Prezident İlham Əliyevin bilavasitə rəhbərliyi ilə İcmanın hazırladığı sənədlər qısa müddətdə beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də rəsmi sənəd statusu qazanıb. Bu, Azərbaycanın məsələyə yalnız milli maraqlar çərçivəsində deyil, eyni zamanda beynəlxalq hüquq, humanitar prinsiplər və qaçqınların hüquqları kontekstində yanaşdığını göstərir.

Azərbaycanlıların Qərbi Azərbaycandakı, yəni indiki Ermənistan ərazisindəki tarixi yurdlarından zorla qovulması prosesi mərhələli şəkildə həyata keçirilib. Proses XX əsrdə xüsusilə dramatik xarakter alıb. Tarixi mənbələr və siyasi sənədlər göstərir ki, 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə müxtəlif ideoloji, siyasi və etnik motivlərə əsaslanan deportasiya və zorakı etnik təmizləmə siyasəti aparılıb. Bu faktlar yalnız insani hüquqların kobud şəkildə pozulmasını deyil, həm də regional tarazlığa qarşı ciddi pozuntuları əks etdirir. Hazırda Azərbaycan dövlətinin bu məsələyə yanaşması həm tarixi ədalətin bərpasına, həm də müasir beynəlxalq hüquq prinsiplərinə əsaslanır. Xüsusilə də 2023-cü ildə imzalanan və Türk Dövlətləri Təşkilatının Nazirlər Şurasının yekun sənədi olan "İstanbul Bəyannaməsi"ndə Qərbi Azərbaycandan zorla çıxarılmış azərbaycanlıların geri qayıtmaq hüququnun tanınması bu istiqamətdə beynəlxalq legitimlik yaradır. Bəyannamədə Ermənistanın Qərbi Azərbaycan İcması ilə dialoqun qurulmasından imtina etməsi açıq şəkildə tənqid olunur. Bu isə bölgədə dayanıqlı sülh və etnik harmoniya üçün real dialoqun zəruriliyini gündəmə gətirir.

Tarixi-statistik məlumatlar sübut edir ki, Sovet Ermənistanı dövründə də Azərbaycanın etnik icması bu ərazidə dərin izlər qoymuş, çoxsaylı yaşayış məntəqələrində yaşamışlar. Rəsmi sənədlərə və tədqiqatlara əsasən, Ermənistan SSR ərazisində 170-dən çox kənd yalnız azərbaycanlıların yaşadıqları məntəqə kimi qeyd olunub. Bundan əlavə, 90-a yaxın kənddə azərbaycanlılar əhalinin əksəriyyətini təşkil ediblər. Ümumilikdə isə 300-dən artıq şəhər və kənddə azərbaycanlılar yaşayırdılar ki, bu da bölgədə onların demoqrafik və mədəni varlığının miqyasını göstərir. Ermənistan ərazisində azərbaycanlılara məxsus mədəni irsin məhv edilməsi prosesi də paralel şəkildə aparılıb. Əgər 1869-cu ildə təkcə İrəvan qəzasında 60-a yaxın məscid fəaliyyət göstərirdisə, XX əsrin əvvəllərində bu say kəskin şəkildə azalmış və sovet dövrünün sonlarına yaxın cəmi bir neçə məscid, o cümlədən yalnız Göy məscid salamat qalmışdı. Bu da təkcə dini obyektlərin deyil, bütövlükdə mədəni və memarlıq irsinin planlı şəkildə sıradan çıxarılmasını sübut edir. Toponimik sahədə aparılmış dəyişikliklər də bu siyasətin ayrılmaz tərkib hissəsidir. Ermənistan SSR-də azərbaycanlıların məcburi köçürülməsindən sonra bu respublikanın 16 inzibati rayonunda 90-dan çox kəndin və şəhərin adı dəyişdirilib. Onların əksəriyyəti türk mənşəli toponimlərdir. Bu, etnik yaddaşın və tarixi izlərin tamamilə silinməsinə yönəlmiş siyasi akt kimi qiymətləndirilə bilər. Faktlar bir daha göstərir ki, Qərbi Azərbaycanda etnik azərbaycanlıların zorla qovulması mədəni, tarixi və dini irsin sistemli şəkildə silinməsi strategiyası ilə müşayiət olunmuşdur.

Prezident İlham Əliyev Qərbi Azərbaycana qayıdış məsələsinin siyasi və hüquqi əsaslarını formalaşdırır, onu beynəlxalq gündəmdə saxlayır. Dövlət başçısı dəfələrlə bəyan edib ki, Qərbi azərbaycanlıların doğma torpaqlarına sülh yolu ilə və təhlükəsiz şəkildə geri dönmələri üçün təşəbbüslər davam etdiriləcək. Bu yanaşma, bir tərəfdən, Azərbaycanın beynəlxalq hüquqa sadiqliyini, digər tərəfdən isə bölgədə inklüziv və davamlı sülhə marağını nümayiş etdirir. Qərbi Azərbaycan İcması da bu kontekstdə aktiv fəaliyyət göstərir. Son Zirvə görüşündə İcma Prezident İlham Əliyevin mövqeyinə təşəkkürünü ifadə edərək yayımladığı bəyanatda Qərbi Azərbaycan məsələsinin yüksək beynəlxalq formatda gündəmə gətirilməsinin qayıdış hüququnun beynəlxalq səviyyədə tanınması baxımından strateji əhəmiyyət daşıdığını vurğulayıb. Eyni zamanda, məsələni prinsipial və ardıcıl şəkildə beynəlxalq təşkilatların diqqətinə çatdırmaqda israrlı olduğunu bəyan edib.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**

Respublika .- 2025.- 10 iyul (№ 139).-